# "Muradına çatmayanlar: apreldən əvvəl və sonra"

## Nə qədər ki belə qəhrəmanlarımız var, mütləq qələbə çalacağıq

**Aprelin 4-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurası və Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin (ATXƏM) birgə təşəbbüsü və dəstəyilə hazırlanmış yazıçı-publisist Bəxtiyar Qaracanın "Bitməyən müharibənin qəhrəmanları" silsiləsindən olan "Muradına çatmayanlar: apreldən əvvəl və sonra" sənədli filmin təqdimatı keçirildi.**



Təqdimatdan öncə aprel döyüşlərində həlak olan şəhidlərin xatirələri bir dəqiqəlik sükutla yad edildi. Daha sonra tədbiri giriş sözü ilə açan **Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov** qeyd etdi ki, sözügedən film "Bitməyən müharibənin qəhrəmanları" silsiləsindən çəkilən filmlərdən biridir: "Sözügedən film aprel döyüşlərinin qəhrəmanlarından biri - polkovnik-leytenant Murad Mirzəyevin həyat yoluna, onun qəhrəmanlığına həsr olunub. Filmin müəllifi rejissor Bəxtiyar Qaraca çalışıb ki, bu qəhrəmanlığı aprel döyüşləri fonunda göstərsin. Bu döyüşlər xalqımızın həyatında çox mühüm rol oynadı və ərazi bütövlüyümüzün bərpa olunması ideyası və istəyini bir daha sübuta yetirdi. Azərbaycan xalqı bu ərəfədə ali baş komandanın ətrafında sıx birləşərək, torpaqları danışıqlar yolu ilə mümkün olmasa, mütləq müharibə yolu ilə azad edəcəyini də nümayiş etdirdi. Döyüşlər həm də ordumuzun regionda ən güclü ordu olduğunu bir daha sübuta yetirdi və əsgərlərimizdə yüksək döyüş əhval-ruhiyyəsi yaratdı. Aprel müharibəsi beynəlxalq təşkilatlara da anlatdı ki, əgər danışıqlar ləngisə, bu problemin həlli səngərlərdə olacaq. Biz həm də Ermənistan rəhbərliyinə döyüşlərdən və problemlərdən qaçmaq və problemin həllini uzatmağın mənası olmadığını sübut etdik. Əgər bu proses davam edərsə, Azərbaycan öz torpaqlarını azad edəcək".

Daha sonra sözügedən film tədbir iştirakçılarına təqdim olundu. Filmin təqdimatından sonra çıxış edən **ATXƏMin sədri İlham İsmayılov** qeyd etdi ki, Murad kimi peşəkar zabitlərin döyüş yolu örnək olaraq orta məktəblərdən şagirdlərə aşılanmalıdır: "Bu qəhrəmanlıq salnaməsi tədris kimi orta məktəblərin yuxarı siniflərində hərbi vətənpərvərlik dərsi kimi şagirdlərə tədris edilməlidir. Millət, vətən uğrunda şəhid olmaqdan üstün bir şey yoxdur. Mənasız ölümdənsə, Murad kimi qəhrəman olmaq min dəfə dəyərlidir. Məncə, canında vətənpərvərlik olan hər bir kəs bunu özünə arzulamalıdır. Fürsətdən istifadə edib , tədbir iştirakçılarına da öz minnətdarlığımı bildirirəm. Əlbəttə, bu filmdən sonra danışmaq bir qədər çətindir. Öz sözünü deyən adam haqqında söz demək çətindir. Muradın valideynlərinə belə layiqli övlad yetişdirdiklərinə görə təşəkkür edirəm".

Təbirdə çıxış edənlər arasında **Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun direktoru, professor Musa Qasımlı** da var idi: "Muradın həyat yoldaşı filmdə belə bir ifadə işlədib. O deyib ki, indiyə qədər Murad mənim qəhrəmanım idisə, bundan sonra bütün millətin qəhrəmanıdır. Bu cümlə Murad haqqında deyilən ən gözəl ifadədir. Bütün millətimizə, gələcək nəsillərə belə bir qəhrəman bəxş etdiyi üçün onun ailəsinə öz minnətdarlığımı bildirirəm. Bu şəhadətə yüksələn övladımızı əvvəl bir ocaq, bir kənd tanıyırdısa, bu gün o, bütün Azərbaycan xalqının Milli Qəhrəmanıdır. Mən, həmçinin professor Əli Həsənova belə bir filmə görə öz təşəkkürümü bildirirəm. Qəhrəmanlarımızı tanıtmaq bizim hər birimizin borcudur. Filmə baxdıqda, bir tarix mənim gözümün önündən gəlib keçdi. 1994-cü ildən bəri ilk dəfə olaraq qürur hissi yaşadan bu döyüşlər üçün Ali Baş Komandamıza təşəkkürümüzü bildiririk. Biz öz torpaqlarımızı düşməndən azad edəcəyik. Aprelin 4 günü ərzində davam edən döyüşlər hamıda fərqli bir milli ruh yaratdı, fərqli baxış ortaya qoydu. Allah şəhidlərimizə rəhmət etsin. Bizim hər birimiz dünyadan köçüb gedəcəyik. Lakin şəhidlərimiz heç zaman unudulmayacaq. Kaş hər birimiz bu zirvəyə yüksələ bilək".

**"İki Sahil" qəzetinin baş redaktoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə** ilk olaraq Muradın valideynlərinə öz təşəkkürlərimi bildirdi: "Biz hamımız onların qarşısında baş əyirik. Onlar vətən, xalq üçün elə bir övlad yetişdiriblər ki, hər bir vətəndaşa nümunə olub. Həmçinin filmin ərsəyə gətirilməsində zəhməti keçən bütün insanlara minnətdarlığımı bildirirəm. Film olduqca təsirli bir filmdir. Hər bir vətəndaş, hər bir gənc üçün örnək olacaq bir həyat yolu filmdə əks etdirilib. Mühüm məqamlardan biri də filmdə Muradın həyat və fəaliyyətinə dair geniş fraqmentlərin öz əksini tapmasıdır. Bu film təkcə burada deyil bütün televiziya ekranlarında nümayiş etdirilməlidir. Düşünürəm ki, orta məktəblərdə də bu film tədris və təbliğ edilməlidir. Xüsusi bir proqram əsasında belə igidlərimizi gənc nəslə təbliğ etmək bizim qarşımızda duran ən böyük məqsədlərdən biridir. Bu gün hər bir gənc Azərbaycanın belə igid oğullarına oxşamaq istəyir. Onların fəaliyyətini isə biz təbliğ etməliyik. Bir daha hər kəsə öz minnətdarlığımı bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyirəm".

**Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli** qeyd etdi ki, bu döyüşlər bütün xalqımızın yaddaşında dərin izlər buraxdı: "Döyüşlərin çox qısa, cəmi 4 gün davam etməsinə baxmayaraq, xalqımızın, ordumuzun mövqeyini ortaya qoydu. Biz göstərdik xalqımız torpaqlarımızın azad edilməsi üçün axırıncı damla qanına qədər döyüşməyə hazırdır. Əlbəttə, Murad kimi qəhrəmanlar daim bizim qəlbimizdə yaşayacaq. O, ən yüksək zirvəyə - şəhidlik zirvəsinə qalxdı. Prezidentimiz də onun xidmətlərini qiymətləndirərək Milli Qəhrəman adı verdi. Bu gün təkcə Muradın ailəsi yox, bütün Azərbaycan xalqı fəxr edir. Biz əminik ki, Muradın davamçıları bizim işğal altında olan bütün torpaqlarımızı azad edəcək. İnanıram ki, o gün uzaqda deyil. Hər birimiz o günü səbirsizliklə gözləyirik. Filmdə əziyyəti keçən hər kəsə öz təşəkkürümü bildirirəm".

**Millət vəkili Eman Nəsirov** bildirdi ki, filmə baxdıqca, insan çox təsirlənir: "Ən böyük xoşbəxtlik özündən sonra iz qoyub getməkdir. Təkcə bu nəsil üçün yox, bütün nəsillər üçün bir nümunə oldu. Belə nümunələr, qəhrəmanlar artdıqca, çoxaldıqca biz bu qələbələrimizi daim qeyd edəcəyik. Murad kimi qəhrəmanları gördükdən sonra düşünürəm ki, onlar "əşi Qarabağ ələn getdi" deyənlər üçün tutarlı bir cavabdır. Biz bu gün Cocuq Mərcanlıya qayıtmışıq. Amma bir gün mütləq öz torpaqlarımızın hamısını işğaldan azad edib, oralara qayıdacağıq. Nə qədər ki, belə qəhrəmanlarımız var, bir gün mütləq qələbə çalacağıq. Bizim xalqımız qəhrəman xalqdır. Belə bir övlad , qəhrəman yetişdirən valideynlərə öz təşəkkürümü bildirirəm".

**Şəbnəm Mehdizadə**